**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**

**18 noyabr 2022-ci il tarixli**

# QƏRARI

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29.10.2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat"a aşağıdakı dəyişikliklər edilsin:

1. 4.32.8-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda yeni 4.32.9-cu, 4.32.10-cu və 4.32.11-ci yarımbəndlər əlavə edilsin:

"4.32.9. İddiaçının şəxsiyyət vəsiqəsinin surəti (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün pasportunun notariat qaydasında təsdiq olunmuş surəti);

4.32.10. İddiaçının şəxsi məlumat vərəqi;

4.32.11. İddiaçının əmək kitabçasının əsas iş yerində (işləməyənlər üçün dissertasiya işinin yerinə yetirildiyi və ya iddiaçının təhkim olunduğu elmi müəssisə və təşkilatda, ali təhsil müəssisəsində) təsdiq olunmuş surəti.".

2. "Elmi dərəcə verilməsi üçün dissertasiya şurası tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilən sənədlərin Siyahısı"na (Əlavə 1.14) aşağıdakı məzmunda yeni 12-1-ci bənd əlavə edilsin:

"12-1. Elmlər doktoru elmi dərəcəsi iddiaçısı üçün fəlsəfə doktoru dissertasiyasının cildlənmiş nüsxəsi, avtoreferatı və "MS WORD" mətn redaktorunda elektron versiyası;".